*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 50-57* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.50*

***Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı***

# Bədii ədəbiyyatdan elmi ədəbiyyata doğru

**Gülxani (Pənah) Şükürova**
Filologiya elmləri doktoru, dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti
E-mail: gulxani@outlook.com

**Annotasiya**. Məqalədə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü İsa Həbibbəylinin elmi-ədəbi irsi, ictimai-siyasi fəaliyyəti tədqiqata cəlb olunur. 60-dan çox əsəri, monoqrafik tədqiqatları, ədəbiyyatşünaslığa dəyərli töhfə olan Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası əsasında ədəbiyyatşünaslığın müxtəlif sahələri üzrə çoxcəhətli fəaliyyəti ilə tanınan akademik İsa Həbibbəylinin bədii yaradıcılıq imkanları araşdırılır. O, həm klassiklərimizin irsini, həm XIX-XX əsr mütəfəkkir şair və yazıçıların yaradıcılığını tədqiqata cəlb etmiş, müstəqillik dövrü ədəbiyyatımıza qayğı və diqqətlə yanaşmış, bu dövr sənətkarların əsərlərini araşdırmış, onların həyatı, dövrü ilə bağlı dəyərli tədqiqatlar aparmış, elmi-nəzəri, ədəbi-tənqidi mülahizələri ilə tanınmış bir alim kimi dəyərli tədqiqatları təhlil edilir.
**Açar sözlər:** İsa Həbibbəyli, söz, ədəbiyyat, poeziya, xalq

**Məqalə tarixçəsi:** göndərilib – 13.02.2024; qəbul edilib – 20.02.2024

# From fiction to scientific literature

**Gulkhani (Penah) Shukurova**
Doctor of Philological Sciences, Associate Professor
Azerbaijan University of Architecture and Construction
E-mail: gulxani@outlook.com

**Abstract.** The article deals with the scientific - literary heritage, political – public activities of Isa Habibbeyli, active member of Azerbaijan National Academy of Sciences. The author of the article researches monographic studies and more than 60 works of Isa Habibbayli who is known for his multiaspected activity on the various branches of literature based on periodization concept of Azerbaijan Literature.

The author investigates Isa Habibbayli᾽s opportunities for artistic creativity. Isa Habibbayli studied the legacy of our classics and creativity of contemplative poets and writers of XIX-XX centuries as well as he approached with care and attention to the literature of the independence period, he researched the literary works of master poets and writers of this period. He also conducted valuable researches about their period, works and creativity.

Known with his scientific-theoretical and literary-critical conciderations and being popular as a valuable scientist Isa Habibbayli᾽s precious studies are analyzed in the article.
**Keywords:** Isa Habibbayli, word, literature, poetry, nation

**Article history:** received – 13. 02.2024; accepted − 20.02.2024

## Giriş / *Introduction*

Azərbaycan xalqı söz sənətinin incəliklərinə dərindən bələd olan xalqdır. Söz elə bir varlıqdır ki, qılıncdan da kəsərlidir. Söz elə varlıqdır ki, insanı öldürə də bilir, dirildə də bilir, yaşada da bilir. Sözü insana verən Xaliq onu insandan əvvəl yaradıb və kimə verəcəyini də özü bilir. Söz böyük sərvətdir. Bu sərvətin kökü, rişəsi var. O rişəni köklü-köməcli nəhəng palıdlar kimi bəsləyən, qoruyan, suyunu verən xalq var və o xalqın böyük təfəkkürə, kamil təfəkkürə, yüksək intellektual təfəkkürə malik ziyalıları – alimləri, şairləri, yazıçıları – söz-sənət xridarları, elmi-potensial gücə malik şəxsiyyətləri var.

Sözə inam, sözə hörmət, onun mənəvi qüdrətinə dəyər vermək kökdən gəlir. Azərbaycan xalqı belə bir kökə malik xalqdır. Söz insanı dünyanın ən yüksək zirvəsinə qaldıra bilir, uca göyləri fəth etmək imkanı verir...

Söz insanın daxili tələbatından doğur, onun hiss-həyəcanlarını, şirin, acı duyğularını, arzu və istəklərini, daxili aləmini aşkara çıxaran, insanı insan edən böyük məfhumdur. O sözdən, o hisslərdən BÖYÜK ƏDƏBİYYAT yaranıb. O ƏDƏBİYYAT könüllər mülkünü fəth edib. Söz insan aləminin nəyə qadir olduğunu üzə çıxaran qeyri-adi gücə malik bir varlıqdır: “Sözlə öz sevinclərini, xoş günlərini, ağır, qayğılı günlərini də bədii şəkildə ifadə etmiş, şeir ölçü-biçimində, mif, rəvayət, əfsanə, nağıl, hekayə, ağı, bayatı, sayaçı sözləri, layla, atalar sözü, zərbi-məsəl, təmsil, mübahisə-münazirə və başqa şəkillərdə verə biliblər. Beləliklə, insan öz işini, fıkirlərini, arzu və istəklərini, ümidlərini, inanclarını ifadə etmək imkanı əldə edib, öz mənəvi dünyasını yaradıb. Bədii düşüncə, bədii təfəkkür insanı kamilliyə doğru çəkib, ona qanad verib, onu yaşadıb. Bəşər tarixində bu, böyük bir dönüş, inkişaf mərhələsi sayıla bilər” (E.Əlibəyzadə).

## Əsas hissə / *Main Part*

**Bədii ədəbiyyatdan elmi ədəbiyyata doğru.** Söz mülkünün xridarları vardır. Millətimin, xalqımın yüksək elmi, bədii, fəlsəfi təfəkkürə malik şəxsiyyətləri sözün dəyərini biliblər, söz mülkünün xəzinəsini zaman-zaman gələcək nəsillərə çatdırmaq üçün üzərlərinə götürdükləri şərəfli vəzifəni layiqincə yerinə yetiriblər. Millətinə, xalqına, dövlətçiliyinə şərəflə xidmət edən, Azərbaycan elminə, ədəbiyyatına, tarixinə dair dəyərli fikirləri, araşdırmaları ilə tanınan, ictimai-siyasi hadisələrə münasibətdə öz dəsti-xətti olan, Azərbaycan ədəbiyyatşünaslığını dəyərli elmi-nəzəri fikirləri ilə zənginləşdirən, orijinal ədəbi-tənqidi baxışları ilə tanınan və yüksək dəyərləndirilən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi İsa Həbibbəyli gənc yaşlarından qələmi ilə seçilmiş, diqqəti cəlb etmiş görkəmli şəxsiyyətdir.

İlk yazısı – “Pambıqçı uşaqlar” “Azərbaycan pioneri” qəzetində (1964) çap olunmuşdur, sonralar dövri mətbuatda şeirləri, elmi məqalələri dərc edilən İsa Həbibbəyli tələbəlik illərindən yüksək elmi intellektuallığı ilə seçilmişdir. İlk tədqiqatları ədəbiyyatşünas alimlərin diqqətini cəlb etmiş, 1973-cü ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Ədəbiyyat nəzəriyyəsi” ixtisası üzrə aspiranturaya qəbul olunmuş, zəhməti ilə elmin zirvəsini fəth etmişdir.

Böyük alimlər, böyük müəllimlər həmişə ustad kimi xatırlanırlar. Məmməd Arif, Mir Cəlal, Feyzulla Qasımzadə, Kamal Talıbzadə kimi Məmməd Cəfər Cəfərovun da tələbələri onu həmişə

fəxrlə yad ediblər. Yüksək intellektual səviyyə, humanizm və sadəlik alimin həyatını rövnəqləndirər. Ona böyük hörmət gətirər. Həyatında böyük rolu olan Məmməd Cəfər Cəfərov, Mirzağa Quluzadə, Yaşar Qarayev, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Kamran Məmmədov və başqa görkəmli şəxsiyyətlərin əhatəsində olan akademik İsa Həbibbəylinin dünyagörüşünün formalaşması üçün real zəminlər vardı və İsa Həbibbəylinin bu gün mükəmməl bir ədəbiyyatşünas kimi yetişməsində onların rolu danılmazdır. Bu bir reallıqdır ki, Məmməd Cəfər Cəfərova məxsus müdriklik, dərinlik və sadəlik, Abbas Zamanovun vətəndaşlıq mövqeyi, Əziz Mirəhmədovun dəqiqliyi və məsuliyyəti İsa Həbibbəylinin elmi fəaliyyətində aydın surətdə özünü göstərir.

Akademik İsa Həbibbəyli yüzlərlə məqalənin, 50-dən çox kitabın müəllifidir. "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" [2], "Ədəbi-tarixi yaddaş və müasirlik" [3], "Romantik lirikanın imkanları" [6], "Ədəbiyyat nəzəriyyəsi" [4], "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" [5] və s. kitabların müəllifidir.

Akademik İsa Həbibbəyli "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. İlk elmi işinin yeniliyi, aktuallığı ilə bağlı təhlil və tədqiqatlarda Azərbaycan ədəbiyyatının çox zəngin və maraqlı bir dövrünə həsr edilmiş həmin tədqiqat işinin "elmi sanbalı, nəzəri cəhətdən orijinallığı və yeniliyi ilə" görkəmli ədəbiyyatşünaslarımız Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Abbas Zamanov, Yaşar Qarayev və professor Kamran Məmmədovun diqqətini cəlb etdiyi, tədqiqat işinin yüksək qiymətləndirildiyini bildirirlər: "Böyük həvəs və fədakarlıqla XX əsrin əvvəllərinin ədəbi ictimai fikrinə qiymət verən İsa Həbibbəyli dövrün və zamanın tələbi baxımından Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi görkəmli ədəbi simaların yaradıcılığını diqqətlə öyrənmiş, romantik şeirin bədii-estetik mahiyyətini, ictimai-fəlsəfi qayəsini və sənətkarlıq xüsusiyyətlərini elmi-nəzəri şəkildə açıb göstərməyə müvəffəq olmuşdur" [1, s.14].

1984-cü ildə çap etdirdiyi "Romantik lirikanın imkanları" adlı monoqrafiyasında ilk dəfə olaraq həmin dövrdə poeziyamızda yaranan sonet, marş, himn, şərqi, türkü və sair poetik formaların poetikasını, romantik lirikada üslub məsələsini, Azərbaycan ədəbiyyatşünaslıq elmində ilk dəfə Hüseyn Cavidin romantik-fəlsəfi, Məhəmməd Hadinin romantik-publisist, Abbas Səhhətin lirik-romantik, Abdulla Şaiqin romantik-realist üslubunun elmi-nəzəri təhlilini vermişdir. Alimlər onun bu tədqiqatlarını Azərbaycan ədəbiyyatşünaslığında, ümumiyyətlə, poetik formalar – janrlar və fərdi üslublar haqqında ciddi elmi-nəzəri tədqiqatlardan biri kimi mühüm əhəmiyyətə malik olduğunu bildirir. Məmməd Cəfər Cəfərov yazır: "Mənim fikrimcə, İsa Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" adlı dissertasiyası bizim filologiya elminə yenilik gətirən və romantik lirika haqqında təəssürat yaradan orijinal bir tədqiqat əsəridir. Orijinallığı bir də o cəhətdəndir ki, burada lirikanın daha çox poetikasından, üslublarından və janr xüsusiyyətlərindən danışılır... Daim axtarışda olmaq İsa Həbibbəylinin özünəməxsus xarakteridir. Onun XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühiti barədəki axtarışları və tapıntıları məni heyrətləndirdi. Mən heç inanmazdım ki, Naxçıvanın ədəbi-mədəni mühiti bu qədər zəngin olmuşdur. İsa Həbibbəyli mirzəcəlilşünas alim kimi də özünü təsdiq etmişdir" [1, s.16].

Zəngin elmi yaradıcılığı ilə beynəlxalq aləmdə böyük nüfuz sahibi olan İsa Həbibbəyli dünyanın bir çox ölkələrində (Türkiyə, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Rusiya, Çin, Fransa, Almaniya, Bolqarıstan, Polşa, Macarıstan, Cənubi Koreya, İran və s.) tanınır.

Akademik İsa Həbibbəyli Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının, Türkiyə Atatürk Dil, Tarix və Kültür Yüksək Qurumunun, Beynəlxalq Çingiz Aytmatov Akademiyasının üzvüdür. O, həmçinin Azərbaycan Respublikası Dövlət Mükafatı Komissiyasının, bir sıra xarici və ölkə qəzet və jurnallarının redaksiya heyətinin üzvü kimi də fəal iş aparır. Əsərləri ingilis, türk, rus, fransız, ərəb, urdu, polyak, macar, gürcü, litva dillərində də çap olunmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının I vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru kimi fəaliyyət göstərən İsa Həbibbəylinin təşəbbüsü ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Niza-

mişünaslıq”, “Azərbaycan mühacirət ədəbiyyatı”, “Ədəbi tənqid”, “Mətbuat tarixi və publisistika”, “Azərbaycan-Asiya ədəbi əlaqələri”, “Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri”, “Uşaq ədəbiyyatı” şöbələri, “Füzulişünaslıq”, “Ədəbi cərəyanlar” sektorları, “Beynəlxalq əlaqələr”, “Nəşriyyat və proqnozlaşdırma”, “İctimaiyyətlə əlaqələr” kimi köməkçi şöbələr yaradılıb. Azərbaycan Respublikasının ictimai həyatında da yaxından və fəal iştirak edən İsa Həbibbəyli 1998-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, 2005, 2010, 2015, 2020-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri kimi fəaliyyət göstərərkən onun rəhbərliyi ilə bir sıra qanunlar (“Elm haqqında” (2015), “Məktəbəqədər təhsil haqqında” (2016), “Peşə təhsili haqqında” (2017), “Ümumi təhsil haqqında” (2019) qəbul edilmişdir. İsa Həbibbəylinin elmi və ictimai fəaliyyəti Azərbaycan dövləti tərəfindən və eləcə də beynəlxalq miqyasda layiqincə qiymətləndirilmişdir. İsa Həbibbəyli “Əməkdar elm xadimi” (1999) fəxri adına layiq görülmüş, “Şöhrət” ordeni (2007), “Şərəf” ordeni (2009), “Birinci dərəcəli Vətənə xidmət” ordeni (2019) ilə təltif edilmişdir.

2001-ci ildə Amerika Bioqrafiya İnstitutu tərəfindən “İlin adamı”, 2004-cü ildə Türkiyə Cümhuriyyəti Dil Qurumunun “Üstün hizmət Baratı” ilə, 2009-cu ildə Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının “İnformasiya aləminin elitası” diplomuna və “Elmi istiqamətin rəhbəri” medalına, 2015-ci ildə Təbriz Universitetinin “Şəhriyar” medalına, 2016-cı ildə “Mahmud Kaşğari” medalına, 2017-ci ildə TÜRKSOY-un “Molla Pənah Vaqif” medalına, 2018-ci ildə “Azərbaycan ordusunun 100 illiyi” medalına, Qazaxıstan Milli Universitetinin “Əl Fərabi” medalına, 2019-cu ildə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” medalına, “Bakı Dövlət Universiteti – 100” yubiley medalına, “Beynəlxalq Türk Akademiyasının Qızıl medalı”na, Avrasiya Yazarlar Birliyinin “Şərəf” medalına, Azərbaycan Yazıçılar Birliyinin Rəsul Rza mükafatına, Azərbaycan Mətbuat Şurasının “Jurnalistikaya xidmətlərinə görə” xüsusi mükafatına layiq görülmüşdür.

Yaradıcılığının əsas mövzusunu Azərbaycan ədəbiyyatşünaslığı təşkil edən İsa Həbibbəylinin zəngin elmi-nəzəri irsi vardır. Böyük təhlil və tədqiqat mövzusu olan elmi-nəzəri fikirləri Azərbaycan ədəbiyyat tarixinin bütün dövrlərini, həmin dövrlərdə yaşayıb-yaratmış Azərbaycan mütəfəkkirlərinin zəngin elmi, ədəbi-bədii, publisist fəaliyyətini özündə əks etdirir.

Azərbaycan Milli Elmlər Akademiyasına həsr olunmuş “Elm məbədi” sənədli filminin, “Akademiya marşı”nın müəllifi (bəstəkar Vaqif Gərayzadə) İsa Həbibbəylinin poeziyası bir daha göstərir ki, bütün ruhuyla “Söz adamı” olan akademik sözünün fövqündə şöhrət tapıb. O elə poeziyasında da azərbaycançılıq məfkurəsinə sadiqliyini isbat edib:

*Odundan, közündən bir yer tanışsa,*
*Qayalar şam kimi göydə alışsa,*
*Dağlar babalartək nağıl danışsa,*
*Bil ki, Azərbaycan torpağıyam mən.*

Əlbəttə, İsa Həbibbəyli şair deyildir. Onun şair olmaq iddiası da yoxdur. İsa Həbibbəyli hələ tələbəlik illərində məşğul olduğu elm və ya bədii yaradıcılıq yollarından birinə, elmi fəaliyyətlə məşğul olmağa üstünlük vermişdir. O, elm sahəsində böyük yol keçmiş, mühüm nailiyyətlər qazanmışdır. Həm Azərbaycanda, həm də dünya ölkələrində onu əsl elm xadimi kimi qəbul edirlər. Buna baxmayaraq, o “sandıq ədəbiyyatı” kimi bədii yaradıcılıqla da məşğul olur, itib-batmasın deyə yazdığı şeirləri kitab halında çap etdirməyi də gərəkli sayır. İsa Həbibbəyli hələ tələbəlik illərindən etibarən intellektual şeirlər yazmağa başlamış, sonralar bu yaradıcılıq xəttini ardıcıl olaraq davam etdirmişdir. İsa Həbibbəylinin bir çox şeirləri elmi fikirlərin qafiyələndirilmiş bədii forması təəssüratı yaradır. Onun şeirlərində seçilmiş mətləbin, detalın, ideyanın obrazlı poetik açıqlaması verilir. İsa Həbibbəyli elm ağırlıqlı poetik əsərlərin yaradıcısıdır. Son onillikdə ideya müəllifi olduğu “Fizika

və lirika" layihəsi də əslində elmlə bədii ədəbiyyatın qarşılıqlı əlaqəsi əsasında yeni tipli bədii fikrin yaradılması ideyasını diqqət mərkəzinə çəkir.

Bu mənada onun həmin layihəni "qoşa qanad" adlandırması tamamilə yerinə düşür. 2013-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasında həyata keçirilən "Fizika və lirika" – "Qoşa qanad" layihəsi nəticə etibarilə yeni tipli intellektual ədəbiyyatın yaranmasına, bu çevrədə Akademizm ədəbi cərəyanının ilkin konturlarının formalaşdırılmasına səbəb olmuşdur.

"Şeirim" adlı proqram xarakterli şeirində akademik İsa Həbibbəyli yazdığı poetik nümunələrin elmlə, ağılla, intellektual baxışla üzvi şəkildə əlaqəli olduğunu bəyan edir:

*Ürəyi deşib, ağıldan gəlir,*
*O, idrak adlı nağıldan gəlir,*
*Elmi baxışdır, şeirə yüksəlir,*
*Şeirdə təzə qaydadı şeirim.*

*...Elmi cavabdır çox suallara,*
*Obrazlar hopub, baxarsan hara.*
*Qafiyə də var, bax ora-bura,*
*Müdrik baxışlı sədadı şeirim.*

*Vətən havalı, insan səslidir,*
*Dərk eləməyə çox həvəslidir,*
*O nə Koroğlu, nə də Əslidir,*
*Qorqud naxışda, boydadı şeirim.*

Akademik İsa Həbibbəylinin ağıldan, idrakdan, elmi baxışlardan süzülüb gələn şeirlərinin özünəməxsusluğunu əyani şəkildə təsəvvür etmək üçün 2017-ci ildə yazılmış aşağıdakı poetik nümunəni təqdim etməyi faydalı hesab edirik. Bu şeirdəki bütün misralar şeirin adı kimi müəyyən olunmuş "Asiyadan baxanda Azərbaycan" anlayışının poetik mənalandırılmasından ibarətdir:

*Günəşli diyardır,*
*Cavandır, ixtiyardır.*
*Üfüqləri ayazdır,*
*Qafqazdır.*
*Nəhəng bir neft çənidir,*
*Qafqaz regionunun Çinidir.*
*Dəmir ipək yoludur,*
*Sərvət ilə doludur.*
*Dədə Qorqud kimi uludur,*
*Asiyanın bir qoludur.*
*Bəşəriyyətin oğludur.*
*Dərin kökləri ilə oğuz yurduna bağlıdır.*
*XXI əsrin nağılıdır.*

Elmi əsərlərində də akademik İsa Həbibbəyli obrazlı fikirlərdən yerli-yerində istifadə edir.

Akademik İsa Həbibbəyli öz tədqiqatlarında Azərbaycan elmi-nəzəri fikrinin müxtəlif mərhələlərinə, ayrı-ayrı böyük sənətkarların yaradıcılığına müstəqillik dövrünün yeni təfəkkürü işığında, daima inkişafda olan təsəvvürlər prizmasından münasibət bildirir. Zaman, dövr üçün zəruri olanları elmi-nəzəri fikirlərlə obyektiv dəyərləndirilməsi diqqəti çəkir.

Müstəqilliyimizin əldə olunması, XX əsrin sonlarından üzü bəri, Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsində yeni bir mərhələ başlandığı gündən ədəbiyyatşünaslıq sahəsində dərin elmi-nəzəri fikirlər, rəylər, real faktlar əsasında yaranan monoqrafiyaların müəllifi İsa Həbibbəyli folklorumuzun dərin köklərini, o köklər üzərində bərqərar olan, inkişaf edən yazılı ədəbiyyatı, onu yaradan, yüksək zirvəyə qaldıran böyük sənətkarların dövrü, həyatı və fəaliyyəti ilə bağlı yeni məqamları üzə çıxaran alimlərimizdən biridir. O, Azərbaycan ədəbiyyatı tarixinə, klassiklərimizin həyat və yaradıcılığına, sənətkarlıq xüsusiyyətlərinə dair çoxlu sayda elmi monoqrafiyanın və kitabların müəllifi kimi tanınır.

Ədəbiyyatşünas alim, böyük demokrat Cəlil Məmmədquluzadə irsinin dəyərli tədqiqatçısı, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyasının müəllifi, ictimai xadim, pedaqoq İsa Həbibbəyli ədəbiyyatşünaslıq tariximizə adı yazılmış böyük simalardan biridir.

O, həm klassiklərimizin irsini, həm XIX-XX əsr mütəfəkkir şair və yazıçıların yaradıcılığını tədqiqata cəlb etmiş, müstəqillik dövrü ədəbiyyatımıza qayğı və diqqətlə yanaşmış, bu dövr sənətkarların əsərlərini araşdırmış, onların həyatı, dövrü ilə bağlı dəyərli tədqiqatlar aparmış, elmi-nəzəri, ədəbi-tənqidi mülahizələri ilə tanınmışdır.

Ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və müqayisəli ədəbiyyatşünaslıq sahələri ilə ciddi məşğul olan, çoxcəhətli fəaliyyəti ilə seçilən, müasir dövrümüzdə ədəbi prosesi yönləndirən, ona istiqamət verən İsa Həbibbəylinin yaradıcılığının tədqiqinə ehtiyac vardır.

Azərbaycan ədəbiyyatşünaslığı tarixində Cəlil Məmmədquluzadəşünas alim kimi tanınan İsa Həbibbəyli onun ədəbi və publisistik fəaliyyətini, mühitini və müasirlərini, bütövlükdə mollanəsrəddinçi ədəbi məktəbinin nümayəndələrinin həyat və yaradıcılığını ətraflı tədqiq və təhlil etmişdir.

Elmi fəaliyyətinin böyük bir hissəsini Cəlil Məmmədquluzadə irsinə həsr edən alimin doktorluq dissertasiyası ("Cəlil Məmmədquluzadə: mühiti və müasirləri") ilə yanaşı, "Cəlil Məmmədquluzadə" (1987), "Zamanın dühası" (1993), "Seçkin Azərbaycan yazarı Cəlil Məmmədquluzadə" (1994) kimi elmi əsərlərin də müəllifidir. Tədqiqatçılar bu sahədə onun böyük rolunu yüksək qiymətləndirirlər: "İsa Həbibbəylinin tədqiqat işinin əsas orijinallığı onun Cəlil Məmmədquluzadə yaradıcılığına yeni yanaşma tərzində, əldə etdiyi zəngin faktları, nadir və çoxsaylı arxiv materiallarını dərin elmi şərhləri ilə birlikdə ilk dəfə tədqiqata cəlb etməsindədir. Ədəbiyyatşünas alimin bu tədqiqatı "Azərbaycanda XIX əsrin sonları və XX əsrin əvvəlləri ədəbi prosesinə ümumiləşdirilmiş yeni bir baxışı" (Yusif Seyidov) ifadə edirdi. İsa Həbibbəyli bu sanballı elmi əsərini yazmaqla Bakı, Tiflis, Təbriz, Kiyev, Ərzurum, Odessa, İrəvan, Naxçıvan, Qori, Yasnaya Polyananın arxiv, muzey və kitabxanalarından əldə etdiyi yeni materiallara və sənədlərə istinad edərək, tənqidi realizm ədəbi cərəyanının yaradıcısı Cəlil Məmmədquluzadənin mənalı və ibrətamiz həyat yolunun, çoxcəhətli ədəbi-ictimai fəaliyyətinin, zəngin və bənzərsiz bədii irsinin, çoxsaylı müasirləri ilə əlaqələrinin geniş və aydın mənzərəsini yaratmaqdan ibarət mühüm bir vəzifəni şərəflə yerinə yetirmişdir" [1, s.18].

Akademik İsa Həbibbəyli bu mənada Mirzə Cəlilşünas alim kimi Azərbaycan ədəbiyyatı tarixinə düşüb. Ədəbiyyatşünaslığımızda Cəlil Məmmədquluzadənin əsərlərinə dair aparılan tədqiqatlarda İsa Həbibbəylinin fikirlərinə istinadlar külli miqdardadır.

## Nəticə / *Conclusion*

Akademik İsa Həbibbəylinin elm qarşısındakı xidmətləri həmişə etiraf edilir. Bununla bağlı monoqrafik əsərlər V.Məmmədov "Böyük alim haqqında kiçik xatirələrim: [akademik İsa Həbibbəylinin 60 illiyinə]"; Yusif Seyidov "Akademik İsa Həbibbəyli"; Teymur Kərimli "Şərqin qapısından dünyaya"; Yavuz Axundlunun "Elmin və təhsilin işığında" kitabları çap olunmuşdur. Həmçinin Muxtar Kazımoğlu "Ədəbi-tarixi gerçəklik və nəzəri fikrin hüdudları"; Mişel Bozdəmir "Avropadan baxanda İsa Həbibbəyli"; Elman Cəfərli "İsa Həbibbəyli: ictimai-siyasi portretin cizgiləri"; Lütviyyə Əsgərzadə "Müasir milli ziyalılığın İsa Həbibbəyli modeli"; Akif İmanlı "Mənim tanı-

dığım İsa bəy"; Şəmsəddin Qasımov "İsa Həbibbəyli və musiqi sənəti"; Sabir Rüstəmxanlı "Naxçıvanda ucalan söz-fikir zirvəsi"; Asif Rüstəmov "İşgüzar rektor, fədakar alim"; Firidun Rzayev "O, öz millətinə əsl insan və alim kimi Tanrının bir lütfüdür"; Məmməd Rzayev "Altmış yaşın işığında"; Mehriban Sultan "Milli ziyalılıq mücəssiməsi"; Nadir Vəlixanov "Azərbaycan romantik lirikası"; Vaqif Yusifli "Tədqiqatçının yaradıcılıq imkanları"; İsa Alıyev "Akademik İsa Həbibbəyliyə məktub"; A.Arpaçaylı "İsa Həbibbəyli olduğu kimi"; Məmməd Cəfər Cəfərov "Daim axtarışda olmaq"; Nizami Cəfərov "Tarixi prosesə müasir münasibət"; Namiq Əhmədov "Klassik Universitetin rektoru, Mirzəcəlilşünas alim"; Cəfər Əliyev "Fədakar alim, səmimi insan, əsl dost"; Y.Hüseynov "İsa Həbibbəylinin düşüncələrimdə əks olunan portreti"; Yusif Seyidov "Akademik İsa Həbibbəylinin yaradıcılığına ümumi nəzər"; Abbas Zamanov "Romantik lirikaya yeni elmi münasibət" və s. məqalələrini akademik İsa Həbibbəyliyə həsr etmişlər. Akademikin yaradıcılığının, klassik irsin və ya müasir ədəbiyyatın tədqiqi həsr olunmuş əsərlərinin sistemli şəkildə araşdırılması zərurət tələb edir.

Akademik İsa Həbibbəylinin Ədəbiyyat nəzəriyyəsi ilə bağlı tədqiqatları ədəbiyyatşünaslıq elminə dəyərli töhfədir. Onun "Böyük ədəbiyyatşünaslıq uğrunda", "Ədəbiyyatın tərifi", "Ədəbiyyatşünaslıq elminin şöbələrinə yenidən baxış", "Satira ədəbi növ kimi", "…Sonet janrı", "Azərbaycan şeirində himn və marş", "Kiçik hekayə janrı-novella", "Dialoq haqqında monoloq", "Ədəbi əlaqələrdən – müqayisəli ədəbiyyatşünaslığa" və sair elmi-nəzəri məqalələri buna nümunə ola bilər. Müəllifi olduğu "Ədəbiyyat nəzəriyyəsi" adlı dərs vəsaiti (1985) bu gün də istifadə olunur. Onun ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid – ümumilikdə ədəbiyyatşünaslıqla bağlı təhlil və tədqiqatları Azərbaycan ədəbiyyatşünaslıq elminin zənginləşməsinə xidmət edir.

Həm ictimai xadim, həm ədəbiyyatşünas alim, həm pedaqoq kimi tanınmış İsa Həbibbəylinin geniş biblioqrafiyasına daxil olan ali məktəblər üçün hazırladığı "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" dərs vəsaitinin adını xüsusilə çəkməliyik. "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" dərs vəsaitində yazıçı və şairlərin tərcümeyi-halı və yaradıcılıq yolu dəqiqləşdirilərək elmi sistem əsasında təqdim olunur. Eyni zamanda bu əsərin Azərbaycan ədəbiyyatını tanıtmaq baxımından da mühüm əhəmiyyəti vardır. "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabının Rusiyada, Türkiyədə, Macarıstanda və Ukraynada nəşri də bunu əyani şəkildə göstərir. Bu dərs vəsaitində ilk dəfə olaraq XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının ədəbi cərəyanlar üzrə təsnifatı aparılmış və əsas təmsilçilərinin həyatı və yaradıcılıq yolu oxuculara çatdırılmışdır. Bundan başqa, yaradıcılıqları az öyrənilmiş, çox vaxt tədris proqramlarında yer almayan Hacı Kərim Sanılı, Eynəli bəy Sultanov, Ömər Faiq Nemanzadə, Əliabbas Müznib, Əhməd Cavad, Əhməd bəy Ağayev, Abdulla Sur, Məmməd Əmin Rəsulzadə və başqalarının həyatı, ədəbi fəaliyyəti də ilk dəfə olaraq bu dərs vəsaitində geniş işıqlandırılmışdır" [1, s.32].

Akademik İsa Həbibbəylinin ədəbi-elmi, ictimai-siyasi fəaliyyəti, ədəbiyyatşünaslığın müxtəlif sahələrindəki tədqiqatları həmişə diqqət mərkəzində olmuş, müasir tədqiqatçılar tərəfindən yüksək dəyərləndirilmişdir.

## Ədəbiyyat / *References*


1. Biblioqrafiya. Akademik İsa Həbibbəyli. – Bakı: Azərbaycan Milli Kitabxanası, 2018. – s.16.
2. Həbibbəyli, İsa. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. – Bakı: Azərnəşr, 1997; Təkmilləşdirilmiş ikinci nəşri. – Naxçıvan: Əcəmi, 2009.
3. Həbibbəyli, İ. Ədəbi-tarixi yaddaş və müasirlik. – Bakı: Nurlan, 2007.
4. Həbibbəyli, İ. Ədəbiyyat nəzəriyyəsi. – Bakı: ADPİ, 1985.
5. Həbibbəyli, İ. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr. – Naxçıvan: Əcəmi, 2013.
6. Həbibbəyli, İ. Romantik lirikanın imkanları. – Bakı: Yazıçı, 1984.

## От художественной литературы к научной литературе

**Гюльхани (Панах) Шукюрова**
Доктор филологических наук, доцент
Азербайджанский университет архитектуры и строительства
E-mail: gulxani@outlook.com

**Резюме.** В статье рассмотрены научно-литературное наследие, общественно- политическая деятельность действительного члена Национальной Академии Наук Азербайджана Исы Габиббейли. Исследуются возможности художественного творчества академика Исы Габиббейли, известного своей многогранной деятельностью в различных областях литературоведения, основанного на концепции периодизации; автора более 60 произведений, монографических исследований, внёсших ценный вклад в литературоведение. Он привлёк к исследованию как наследие наших классиков, так и творчество мыслителей поэтов и писателей XIX и XX веков; с вниманием и заботой отнёсся к литературе периода независимости; исследовал жизнь и произведения авторов этого периода. В данной статье проводится анализ ценных исследований этого учёного, известного своими научно-теоретическими и литературно-критическими работами.
**Ключевые слова:** Иса Габиббейли, слово, литература, поэзия, народ